**Şəhidlər Vətən torpağının yaddaşına, milli dövlətçilik tariximizə və ürəklərimizə öz adlarını qızıl hərflərlə yazdılar. Onların qısa, lakin mənalı və məzmunlu ömür yolunu, solmaz xatirələrini Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyası ərsəyə gətirdiyi nəşrlərdə əbədiləşdirir. Bu nəşrlər qəhrəman Vətən oğullarının adlarını əbədiyyətə qədər unudulmağa qoymayacaq, onlar hər zaman xatırlanacaq.**








# Onlarla şəhid ailəsi "44 gün - Tarixi zəfər" kitabının təqdimatına toplaşdı...

***Nəzakət Məmmədova:*** *"Redaksiyanın bugünkü təqdimatı "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin İV cildində adları keçmiş Yasamal rayon şəhidlərinə həsr edilib"*







YAP Yasamal rayon təşkilatının binasında bir canlanma var, şəhid ailələri, rayon ictimaiyyətinin nümayəndələri, millət vəkilləri, tanınmış şəxslər Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının böyük zəhmət və fədakarlıqla hazırlayıb nəşr etdiyi "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin IV cildinin təqdimatına yığışıblar.

Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Respublika Xatirə Kitabının Yasamal Rayon İcra Hakimiyyəti və YAP Yasamal rayon təşkilatı ilə birgə "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin IV cildinin təqdimatını keçirdi. Digər üç cilddə olduğu kimi bu cilddə də Vətən uğrunda şəhid olmuş şəxslər haqqında ensiklopedik məlumatlar yer alıb, onların adları və xatirələri əbədiləşdirilib.

Sinələrinin qəhrəman oğulların şəkilləri bəzəyən şəhid ata və anaları, bacı-qardaşları, yaxınları çox həyacanlıdırlar, gözlərində kədər, ürəklərində qəm olan bu insanlar tezliklə təqdimatı keçirilən kitaba qovuşmaq istəyirlər. O kitablara övladları kimi baxırlar.

Dövlət himninin səslənməsi və şəhidlərin ruhunun 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbiri YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev açdı. Respublika Xatirə Kitabı Redaksiyasının yaranmasının 30 illiyinə həsr olunan videoçarx nümayiş olundu.

Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova çıxışında bildirdi ki, müasir Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin qayğısı və təşəbbüsü ilə yaradılmış, onun xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı insan resurslarını əbədiləşdirən tarixi sənəd, tarixlə cəmiyyət arasındakı həqiqətləri, müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik salnamədir.

Nəzakət Məmmədova vurğuladı: "Məlumat üçün demək istəyirəm ki, müasir Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və onun xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı Redaksiyası müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik tarixi salnamə və həyatımız üçün mühüm hadisədir.

Respublika Xatirə Kitabında əsasən, İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız haqqında əhatəli materiallar cildlərə salınır, bugünkü və gələcək nəsillər üçün tarixi hadisə kimi xarakterizə edilir".

N.Məmmədova vurğuladı ki, II Dünya müharibəsi başlayanda Azərbaycan Respublikasının əhalisi 3,4 milyon olmuşdur. Baş redaktor qeyd etdi ki, onun 700 minə yaxın vətəndaşı müharibəyə çağırılıb (10 min nəfəri qadın olmaqla), 300 minə yaxın vətəndaş müharibədən qayıtmamışdır.

"90-cı illərdə Rusiya keçmiş 15 müttəfiq respublikada II Dünya müharibəsi zamanı həlak olanlar haqqında ensiklopedik toplunun çıxarılmasına qərar vermişdir. Ümumilikdə 1400 kitabın çapı nəzərdə tutlmuşdur ki, bunun 20 cildi Azərbaycanın payına düşmüşdür.

Redaksiyamız II Dünya müharibəsində həlak olan və itkin düşən Azərbaycan övladları haqqında məlumatların axtarışını və toplanmasını mütəşəkkil qaydada təşkil edib və bu işə müqəddəs vəzifə kimi yanaşıb. Bu münasibətlə redaksiya həm də "Qələbə-75" və "Qələbə-80: Azərbaycan xalqının mübarizə əzmi" xüsusi buraxılışlarını da çap etdirib.

Redaksiya bu qəbildən eləcə də "Tarixin qan yaddaşı", "223-cü Qırmızı Bayraqlı Belqrad Diviziyası", "Gözlə məni, ana", "Vətənin şöhrətini ucaldanlar" və s. kitablar dərc etdirib. Azərbaycanın Milli Qəhrəmanları haqqında kitablar da dərc edilib.

Əbəs yerə bu kitabları qan yaddaşımızın abidəsi adlandırırıq. Çünki bu kitablarda tariximiz, milli kimliyimiz örnək nüanslar kimi səciyyələnir və burada "Heç kim unudulmur, heç nə yaddan çıxmır!" prinsipi əsas götürülür".

N.Məmmədova çıxışında bildirdi ki, 2017-ci ildə Respublika Xatirə Kitabı Redaksiyası Dövlət Təhlükəsizlik Xidməti nəzdində fəaliyyət göstərən Əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu ilə birlikdə daha məsuliyyətli bir araşdırmaya başlayıb.

*Ardı səh. 11-də*

*Əvvəli səh. 10-da*

"Aparılan iş birliyinin məqsədi Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən Ermənistanın Azərbaycanın əzəli və əbədi torpağı olan Dağlıq Qarabağ və ətraf rayonlara hücumu, torpaqlarımızın işğalı zamanı əsir və girov götürülmüş, həmçinin naməlum şəraitdə itkin düşmüş hərbçi və mülki şəxslərin sonrakı talelərinin araşdırılması əsas prioritet kimi qəbul olunub. Redaksiya bununla bağlı iki dildə (Azərbaycan və ingilis dillərində) 4 clddə kitab nəşr etdirib. Respublika Xatirə Kitabı Redaksiyası həmçinin, "Bakı Xəbər" qəzeti ilə birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" silsiləsindən Qarabağ müharibələrində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə 10 kitab nəşr etdirib, həmin kitabların təqdimatını keçirib. Layihə üzrə işlər hazırda da davam etdirilir.

Redaksiyamız eyni zamanda, "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında 8 sənədli film də çəkib. Bu filmlər geniş ictimaiyyətə təqdim olunub.

Respublika Xatirə Kitabı Redaksiyası ümummilli liderin 100 illiyi ilə əlaqədar "2023-cü il - Heydər Əliyev İli"ndə "Heydər Əliyev Xatirə kitabının yaradıcısıdır" adlı kitab nəşr etdirib. Bu kitab xalqımızın xilaskarı, dövlətçiliyimizin, Konstitusiyamızın və qanunlarımızın qarantı Heydər Əliyevə tərəfimizdən bir vəfa borcudur. 7 oktyabr 2025-ci il tarixində Bakı Ekspo Mərkəzində həmin kitabın təqdimatı keçirilib.




Böyük Qələbə hissini bizə yaşadan 3 mindən çox şəhidimizin (Aprel döyüşlərində, Tovuz hadisələrində, 44 günlük Vətən müharibəsində, müharibədən sonrakı dövrdə, antiterror əməliyyatlarında) adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə "44 gün - Tarixi zəfər" adlı 4 cilddə kitab nəşr edilib, onların təqdimatları keçirilib".

N.Məmmədova dedi ki, redaksiya hazırda Birinci Qarabağ müharibəsində həlak olmuş şəxslərin adlarının əbədiləşdirilməsi istiqamətində yeni layihə hazırlayıb, bu işi gələcək nəsillərə ötürmək, kitabın gələcək uğurunu, gələcək taleyini müəyyənləşdirmək istiqamətində atılacaq addımlara vacib iş kimi yanaşılır: "Birinci Qarabağ müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə təxmini olaraq 10 cild kitabın hazırlanması nəzərdə tutulub.

Respublika Xatirə Kitabı qan yaddaşımızın tarix salnaməsidir və redaksiya hazırda dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı altında bugünkü və gələcək strateji işlərini də eyni məhəbbət və həvəslə davam etdirmək üçün əzmlə çalışır.

Xalqımıza böyük Zəfər bəxş edən oğullarımızın adlarının əbədiləşdirilməsi Respublika Xatirə Kitabı Redaksiyasının ümdə işidir və redaksiya bu prosesi daim öz üzərində bir məsuliyyət kimi hiss etmiş, bu istiqamətdə araşdırma işləri aparmış və bu ənənəni hazırda da davam etdirməkdədir.

Redaksiyanın bugünkü təqdimatı "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin IV cildində adları keçmiş Yasamal rayon şəhidlərinə həsr edilib.

Xalqımızın 30 illik həsrətinə 44 gündə son qoyan cəsur, qəhrəman və qeyrətli Azərbaycan övladları - öz canlarını Vətən üçün fəda edən, şərəf tariximizi yazan şəhid oğullar daim yaddaşımızda yaşayacaq, xatirələri həmişə bizə əziz olacaq. İllər, qərinələr ötəcək, onlar heç vaxt unudulmayacaqlar.

Sağlamlıqlarını itirmiş qazilərimiz də bizim fədailərimizidr, onların hünəri ilə bu gün başımızın üstündə nikbin bir səma pərvaz edir".

Tədbirdə millət vəkili Vüqar Rəhimzadə, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov, "Xalq" qəzetinin baş redaktoru Əflatun Amaşov, Yasamal rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir İsmiyev çıxışlarında Xatirə Kitabı Redaksiyasının həyata keçirdiyi işləri çox yüksək dəyərləndirdilər. Onlar torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əbədi yaşayacağını, onların adlarının ürəklərə qızıl hərflərlə həkk olunduğunu dedilər.

Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, Vətən müharibəsi şəhidi Nurlan Mustafayevin anası Rahilə Ramazanova çıxış edərək "torpaq, Bayraq müqəddəsdir və o bu müqəddəs amal uğrunda canını fəda etməkdən çəkinmədi. Həmişə dediyim bir söz var: hər şəhidin arxasınca bir ana şəhid olur"-dedi və bu sözlərlə oğlunu və digər şəhidlərimizi xatırladı.

Millət vəkili Ceyhun Məmmədov çıxışında bildirdi:"Bu gün biz önəmli bir kitabın təqdimatı ilə bağlı bir araya gəlmişik. Bir neçə dəfə Xatirə Kitabı Redaksiyasının tədbirlərində iştirak etmişik. İllər əvvəl ulu öndər belə önəmli, müdrik qərar qəbul edərək bu redaksiyanı yaratdı. Bizim qarşımızda duran missiya odur ki, biz şəhidlərimizi heç vaxt unutmayaq".

Tədbirin sonunda "44 gün - Tarixi zəfər" adlı çoxcildliyik şəhid ailələrinə təqdim edildi. Böyük həyacanla, əlləri titrəyə-titrəyə vərəqləyirlər kitabı, oğullarının şəkillərini görərgörməz səhifəni dodaqlarına yaxınlaşdırırlar. Atalar-analar şəkilə dönmüş balalarını öpürlər... Xatirə Kitabı Redaksiyasının nəşr etdiyi "44 gün - Tarixi zəfər" çoxcildliyi onlar üçün böyük təsəllidir…

***İradə SARIYEVA***